# ... Onu dinlədikcə



## QƏDİM MUSİQİ ALƏTLƏRİ ANSAMBLI

**Haqqında söhbət açdığımız kollektiv əslində 18 il əvvəl formalaşıb. 1988-ci ildən fəaliyyət göstərir. İlk dəfə Şah İsmayıl Xətainin 500 illiyində çıxış edib. Arada bir müddət fasilə yarandığından tamaşaçılar qarşısına bir də 1996-cı ildə çıxıb.**



# xəyalın XIV əsrə qanadlanır...

*Akademik Yusif Məmmədəliyevin xatirə gecəsinə təsadüf edən həmin tədbirdə ümummilli liderimiz Heydər Əliyev ansamblın çıxışını yüksək qiymətləndirir. Elə həmin il onun sərəncamı ilə ansambla Dövlət statusu verilir.*

Ansambl Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin nəzdində fəaliyyət göstərir. Qədim alətlərin ilk nümunələri də bu muzeydə nümayiş etdirilir.

Ansamblın repertuarında 23 musiqi nömrəsi var. İndiyədək 10 qədim musiqi aləti bərpa olunub.

Ansamblın bənzərsiz cəhəti ondadır ki, musiqiçilər orta əsrlərdə istifadə olunmuş, tədricən unudulmuş və muzeyin əməkdaşı, ansamblın bədii rəhbəri M.Kərimov tərəfindən bərpa olunmuş musiqi alətlərində XIV əsr musiqisini, həmçinin Azərbaycan xalq və bəstəkar mahnılarını ifa edirlər. Ansambl 14 nəfərdən ibarətdir, onun üzvləri o dövrə aid milli geyimlərdə çıxış edirlər.

Ansamblın fəaliyyəti beynəlxalq forumlarda təqdim olunmuş və professionallar tərəfindən qiymətləndirilmişdir.

1997-ci ildə Şotlandiyanın Edinburq şəhərində dünya elmi-musiqi elitasının iştirakı ilə keçirilən "Akustika və musiqi alətlərinin texnologiyası" mövzusunda beynəlxalq simpoziuma dəvət almışdır.

1998-ci ildə Avstraliyanın Melbrun şəhərində Beynəlxalq Muzeylər Şurasının XVIII Baş konfransında və elə həmin ildə Parisdə keçirilən konfransda iştirak etmişdir.

2002-ci ildə Fransada Voix et Route Romante (orta əsr musiqisinə həsr olunmuş) festivalına dəvət almışdır, həmin ildə Starsburqda, eləcə də Parisdə YUNESKO-nun iqamətgahında konsert proqramı ilə çıxışı çox maraqla qarşılanmışdır.

2003-cü ildə Almatıda "Bulat Sarıbayev və onun müasirləri" konfransında iştirak etmişdir.

2003-cü ildə YUNESKO-nun maddi dəstəyi ilə ansamblın ifasında disk buraxılmışdır.

2005-ci ildə ansambl Düşənbə şəhərində keçirilən "Qəlblərin səsi" Beynəlxalq festivalında iştirak etmiş, diploma layiq görülmüşdür.

Ansambl tez-tez rəsmi dövlət tədbirlərində və xarici qonaqların qarşısında çıxış edir.

2005-ci ildə ansambl YUNESKO-nun baş direktoru Koişiro Matsuuranın şərəfinə İçərişəhərdə - "Karvansaray" da verilmiş konsertdə iştirak etmişdir. Ansamblın repertuarı genişdir, orta əsr musiqisini və bu günlə səsləşən folklor nümunələrini özündə birləşdirir.

Həmin il həmçinin İstanbul və Düşənbə səfərləri də unudulmaz olmuşdur. Birincidə islam ölkələrinin mədəniyyət həftəsində, ikincidə "Ürəklərin səsi" Beynəlxalq festivalında iştirak edib, festivalın baş mükafatını alıb.

***Göründüyü kimi kollektivin uğurları çoxdur. Amma bu son hədd deyil. Hələ əsl nailiyyət qarşıdadır. Ansambl məhz bu arzu ilə əzmlə çalışır, fəaliyyət göstərir.***

**Bahar ZAYRALIQIZI**